**Amirə Cabbar qızı İSMAYILOVA**
Azərbaycan Kooperasiya Universiteti, doktorant
E-mail: amire1986@mail.ru

# BEYNƏLXALQ İQTİSADİ İNTEQRASİYANIN XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məqalədə iqtisadi inteqrasiya ayrı-ayrı ölkələrin təsərrüfat sistemlərinin qarşılıqlı uyğunlaşması və birgə fəaliyyəti kimi dəyərləndirilmişdir. İnteqrasiyanın təşkili və inkişaf etdirilməsi üçün zəruri olan prinsiplər izah olunmuşdur. İnteqrasiya prosesisinin iştirakı, ölkələrdə yaratmış olduğu müsbət meyllər təhlil olunmşdur.

İnteqrasiya proseslərinin mikro və makro səviyyədə təşkili prinsipləri araşdırılmışdır. Bunun ardınca inteqrasiya prosesinin ən mühüm digər xüsusiyyətləri şərh olunmuşdur. Həmin xüsusiyyətlərin hər birinin iqtisadi münasibətlərə təsiri izah edilmişdir. İnteqrasiya prosesləri nəticəsində iqtisadi inteqrasiya qiymətləndirilmişdir. Bu istiqamətdə beynəlxalq əmək bölgüsünün və beynəlxalq istehsal kooperasiyalarının yaranması əsas şərt kimi izah olunmuşdur.

**Açar sözlər:** inteqrasiya, beynəlxalq əmək bölgüsü, beynəlxalq istehsal kooperasiyaları, makro səviyyədə inteqrasiya, mikro səviyyədə inteqrasiya

**JEL:** F 33
**DOI:** 10.54414/IKIW8609

**Giriş**

İqtisadi ədəbiyyatlardan və araşdırmalardan məlum olduğu kimi iqtisadi inteqrasiya ayrı-ayrı ölkələrin milli təsərrüfat sistemlərinin onların tədrici iqtisadi qovuşmasına aparan qarşılıqlı uyğunlaşması və birgə fəaliyyətidir. [1, səh 4-5]

Tədqiqatlar göstərir ki, inteqrasiyanın inkişaf etdirilməsi bir sıra təməl prinsiplərin, zəminlərin olmasını tələb edir. Hər şeydən əvvəl inteqrasiya edən ölkələr təqribən bərabər iqtisadi inkişaf səviyyəsinə malik olmalıdırlar. Onların iqtisadi inkişaf imkanları və perspektivləri bir-birinə uyğun olmalıdır. Eyni zamanda həmin ölkələrin təsərrüfat mexanizmləri də bir-birinə yaxın olmalıdırlar.

Məlum olduğu kimi əgər inkişaf etmiş ölkələr inteqrasiya edirlərsə bu hal çox etibarlı, möhkəm və səmərəli nəticələrə gətirib çıxarır. Bu isə təcrübənin sübut etdiyi kimi təbii haldır. Çünki inteqrasiya sisteminin uğuru və səmərəli nəticələri bütövlükdə bu sistemin iştirakçısı olan ölkələrin biri-birindən gözləntisindən asılı olur. Məhz bu səbəbin özü də inteqrasiyanı yaradan səbəblərdən biri kimi çıxış edir. İnteqrasiya prosesi bir çox hallarda beynəlxalq maliyyə kredit təşkilatlarının dəstəyi və birbaşa köməyi ilə baş tutur. Çünki inteqrasiya proseslərinin təmin edilməsi və tənzimlənməsi həmin təşkilatların maraq dairəsindədir.

**İqtisadi inteqrasiyanın əsas istiqamətləri.**

İqtisadi inteqrasiyanın formalaşmasının və onun inkişaf etdirilməsinin çoxsaylı amillərin təsiri altında baş verdiyi artıq elmə məlumdur. Bu prosesi şərtləndirən həmin amillər müxtəlif xarakterlidir. Belə amillərdən biri inteqrasiya edən ölkələrin ümumi sərhədlərə və ya tarixən formalaşmış iqtisadi münasibətlərə malik olmalarıdır. Adətən inteqrasiyaya qoşulan ölkələr bir qitədə, coğrafi cəhətdən bir-birinə yaxın ərazidə yerləşirlər. Belə olduğu halda ölkələrarsı nəqliyyat, logistika, dil və s. problemləri həll etmək asan olur.

Dünya təcrübəsi göstərir ki, qeyd olunan şərt çox təbiidir. Çünki yaxın sərhədlər boyu yerləşən ölkələrdə birgə iqtisadi maraqlar həmişə mövcud olur. Bir-birindən coğrafi cəhətdən uzaqda olan ölkələrdə isə birgə maraqlar tapmaq çətindir. Bir cəhəti də nəzərə almaq lazımdır ki, inteqrasiya proseslərinə qoşulan ölkələr heç də biri digəri üzərində üstünlük əldə etmək məqsədi daşımır, inteqrasiyada əsas məqsəd sinergiya səmərəsindən istifadə edərək, bir ölkənin digər ölkədə olan daha yaxşı inkişaf meyllərini və parametrlərini

qəbul edərək, birgə fəaliyyətdə iqtisadi uğurlar qazanmaqdır. [2, səh 46]

Tədqiqatlarda rast gəlindiyi kimi, inteqrasiyanın ən mühüm istiqamətlərindən biri də bu prosesə qoşulan ölkələrdə iqtisadiyyatda bir-birini tamamlayan qarşılıqlı struktur dəyişikliyinin baş verməsidir. Bu proses qarşılıqlı olaraq həyata keçirildikdə səmərəli nəticələr verir.

İnteqrasiya proseslərinin ən mühüm istiqamətlərindən biri də prosesdə iştirak edən ölkələrin iqtisadiyyatında, qarşılıqlı əlaqələrdə yeni orientasiyaların meydana gəlməsidir. Bu vəziyyət daha çox ölkələrin regionaldaxili əməkdaşlığı dövrü yaranır. Bu prosesdən kənarda qalan ölkələrdə isə iqtisaid problemlər yaranır. Həmin problemləri aradan qaldırmaq üçün həmin ölkələr inteqrasiya proseslərinə qoşulmalı olurlar.

Araşdırmalar göstərir ki, ölkələrarası inteqrasiya prosesləri həm makro səviyyədə, həm də mikro səviyyədə baş verir. Makro səviyyədə inteqrasiya dedikdə dövlətlər arasında makrosəviyədə dövlətlərin iqtisadi birliklər yaratması və bu məqsədi ilə özlərinin milli siyasətlərinin şərtlərinin qarşılıqlı razılaşdırılması başa düşülür. Mikro səviyyədə inteqrasiya dedikdə isə bir-birinə yaxın olan ölkələrdə fəaliyyət göstərən ayrı-ayrı iqtisadi strukturların öz aralarında müxtəlif formalı iqtisadi əlaqələr qurması və eyni zamanda onların xarici ölkədə öz filialını yaratması başa düşülür.

İnteqrasiya proseslərinin mühüm xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, mikrosəviyyədə firmalar, şirkətlər arasında geniş və sürətli iqtisadi əlaqələrin baş verməsi və getdikcə dinamik xarakter alması çox hallarda dövlətlərarası münasibətlərin yaranması zərurətini doğurur. Bu səviyyədə münasibətlərin formalaşması dövlətlər arasında əmtəələrin, xidmətlərin, kapitalın, iş qüvvəsinin region daxilində sərbəst hərəkətini təmin edir. Bu amilin olması daha çox əhəmiyyət kəsb edən digər məsələlərin də həllini şərtləndirir. Bu məsələlərə region daxilində birgə iqtisadi, sosial, elmi-texniki, maliyyə, kredit, valyuta, xarici və s. siyasətin aparılması aid edilir. Bu məsələlərin birgə həll edilməsi nəticədə region üçün bir sıra vahid komplekslərin, o cümlədən infrastruktur, valyuta, iqtisadi, maliyyə və s. kimilərinin yaranmasını şərtləndirir.

İqtisadi inteqrasiya prosesinin formalaşması bir sıra obyektiv amillərdən asılı olur. Bu amillərdən ən əsasları ölkələrin təsərrüfat həyatının qloballaşmasından, beynəlxalq əmək bölgüsünün dərinləşməsindən, milli iqtisadiyyatların liberallıq səviyyəsinin yüksəlməsindən, qarşılıqlı əməliyyatlarda elmi-texniki tərəqqinin son nəaliyyətlərindən istifadə olunmasından və s. ibarətdir. Dünya təcrübəsi göstərir ki, bütün bu sadalanan amillər bir-biri ilə üzvi surətdə qarşılıqlı əlaqədə olaraq bir-birini şərtləndirirlər. [3, səh 121].

Araşdırmalar göstərir ki, müasir iqtisadi inkişaf şəraitində, ölkələr arasında, eləcə də onların ayrı-ayrı subyektləri arasındakı əlaqələr beynəlxalq əmək bölgüsünün əsasında qlobal xarakter almışdır. Belə ki, inteqrasiya prosesində iştirak edən ölkələrdə milli iqtisadiyyatların liberallıq səviyyəsinin yüksəlməsi, elmi-texniki tərəqqinin təkmilləşməsi, beynəlxalq ticarətin və kapitalın miqrasiyasının artması, müasir nəqliyyat və logistikanın inkişaf səviyyəsi, rabitə və informasiyanın inkişaf səviyyəsi təsərrüffat həyatının milliləşməsi prosesini o həddə çatdırmışdır ki, dünya iqtisadiyyatında çoxsaylı ölkələrdə fəaliyyətə olan çoxsaylı şirkətlərin fəal iştirakı ilə şərtlənən qarşılıqlı qlobal şəbəkə yaranmışdır.

Məlum olduğu kimi dövlətlərarası səviyyədə inteqrasiya dövlətlərin regional iqtisadi birliklərinin yaranması yolu ilə baş verir. Bu halda dövlətlər öz daxili və xarici iqtisadi siyasətlərini razılaşdırırlar. [4, səh 15-17]. Dövlətlərin iqtisadiyyatlarındakı qarşılıqlı fəaliyyəti və qarşılıqlı uyğunlaşması birinci növbədə tədrici formada ümumi bazarın yaranması ilə, sonra isə əmtəələrin mübadiləsi və istehsal resurslarının ölkələrarası yerdəyişməsinin şərtlərinin liberallaşması ilə baş verir.

Tarixi mənbələrdən məlumdur ki, ötən əsrin birinci yarısı azad, müstəqil dövlətlərin yaradılması ilə xarakterik olmuşdur. Həmin əsrin ikinci yarısından isə əks proses getmişdir. Bu əks prosesi özündə əks etdirən meyllər ötən əsrin 50-ci illərindən Avropada, 60-cı illərindən sonra isə digər regionlarda baş vermişdir. Həmin proseslər çərçivəsində bir sıra ölkələr özlərinin tam milli suverenliyindən könüllü

surətdə imtina edərək digər ölkələrlə inteqrasiya birlikləri yaratmışlar. Bu prosesin əsas səbəbi isə ondan ibarət olmuşdur ki, həmin ölkələr istehsalın iqtisadi səmərəliliyinin artırılmasına cəhd etmişlər. Onlar belə hesab edirdilər ki, iqtisadi inteqrasiya iqtisadi xarakter daşımaqla bu vəzifənin yerinə yetirilməsini təmin edə bilər.

İnteqrasiya proseslərinin ən mühüm xüsusiyyətlərindən biri məhz inteqrasiya bloklarının yaradılmasından ibarətdir. İnteqrasiya bloklarının yaranmasının əsas səbəbləri beynəlxalq əmək bölgüsünün inkişafı və beynəlxalq istehsal kooperasiyalarının yaranması ilə bağlıdır.

Araşdırmalarla sübut olunmuşdur ki, beynəlxalq əmək bölgüsü, beynəlxalq istehsal prosesinin təşkilinin elə bir sistemidir ki, burada hər bir ölkə özünün daxili bazarını zəruri əmtəələrlə təmin edilməsi deyil, inteqrasiya iştirakçıları olan ölkələrin bazarları üçün lazım olan əmtəələrin istehsalında ixtisaslaşırlar. Öz ölkələrində çatışmayan əmtəələri isə idxal hesaına əldə edirlər. Sadə misal olaraq göstərmək olar ki, Yaponiya və ABŞ arasında avtomobil ticarəti üzrə belə bir razılaşma vardır. Yaponiya qənaətcil, az yanacaq sərf edən, varlı olmayan əhali kütləsi üçün avtomobillərin istehsalı üzrə ixtisaslaşır. ABŞ-da isə əhalinin varlı yaşayan təbəqələri üçün yüksək səviyyəli, bahalı avtomobillər istehsal olunur. Bu halda ölkələrin hər birində müxtəlif növ avtomobil istehsalı vəziyyəti ilə müqayisədə hər iki ölkə yüksək səviyyədə nəticələr əldə edir.

İnteqrasiya bloklarının yaranmasını şərtləndirən amillərdən biri də beynəlxalq istehsal kooperasiyalarının yaranmasıdır. Bu istehsal prosesinin elə təşkili formasıdır ki, ayrı-ayrı ölkələrdən olan işçilər birgə olaraq eyni istehsal prosesində iştirak edirlər. Belə ki, həm ABŞ, həm də Yapon avtomobillərinin çoxsaylı komplektləşdirici hissələri ayrı ölkələrdə istehsal olunur. Əsas müəssisələrdə isə avtomobillərin yığımı baş verir. Beynəlxalq kooperasiyanın inkişafı nəticəsində istehsalı beynəlxalq miqyasda təşkil edən və bu sahədə dünya bazarını tənzimləyən transmilli korporasiyalar yaranır. [5, səh 26].

Müxtəlif araşdırmalardakı mövqeləri təhlil edərək belə bir mövqeyə, fikrə gəlmək olar ki, beynəlxalq əmək bölgüsünün və eləcə də beynəlxalq istehsal kooperasiyasının inkişaf etməsinin nəticəsində beynəlxalq ümumiləşmiş istehsal, yəni istehsalın beynəlmiləlləşməsi yaranır. Təcrübə göstərir ki, bu iqtisadi cəhətdən sərfəlidir. Çünki bu bir tərəfdən ayrı-ayrı ölkələrin resurslarından səmərəli istifadə etməyə imkan yaradır, digər tərəfdən isə böyük miqyasda qənaət etməyə şərait yaradır. İkinci amil hal-hazırda daha zəruridir. Çünki, yüksək texnoloji proseslərə əsaslanan istehsal prosesləri böyük məbləğdə ilkin kapital tələb edir. Vəsaitlərin yatırıldığı istehsal irimiqyaslı olduğu halda xərclər özünü doğruldur.

Beynəlxalq iqtisadi inteqrasiyanın ən mühüm nəticələrindən olan istehsalın beynəlmiləlləşməsi həm regionlar səviyyəsində, həm də beynəlxalq səviyyədə reallaşır. Bu prosesin stimullaşdırılması üçün xüsusi, milli maraqlardan üstün beynəlxalq maraqları güdən iqtisadi təşkilatlar yaradılır. Belə təşkilatlar dünya iqtisadiyyatını tənzimləyir və paralel olaraq milli iqtisadiyyatların iqtisadi suverenliyinin bir hissəsini ələ keçirmiş olurlar.

İqtisadi inteqrasiyanın ən mühüm xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun yaratmış olduğu istehsalın beynəlmiləlləşməsi müxtəlif cür inkişaf edə bilər. Ən sadə üsul ondan ibarətdir ki, inteqrasiya prosesində iştirak edən tərəfdaş ölkələr arasında dayanıqlı iqtisadi əlaqələr təmin edilir. Bu əlaqə qarşılıqlı olaraq ölkələrin bir-birinin iqtisadiyyatının tamamlanması prinsipinə əsaslanır. Belə bir halda hər bir iştirakçı ölkə özündə əmtəələrin elə bir toplusunun istehsalını həyata keçirir ki, sonradan həmin məhsulları xaricdə valyutaya sataraq, əldə olunmuş vəsaitə xaricdə istehsal edilən, öz ölkəsində isə istehsal edilməyən yaxşı, keyfiyyətli məhsulları ala bilsin. Buna misal olaraq göstərmək olar ki, neft ölkələri enerji resurslarının çıxarılması və ixrac olunması sahəsində ixtisaslaşaraq istehsal mallarının çoxunu idxal edirlər. Belə vəziyyət mövcud olduğu halda ölkələr qarşılıqlı olaraq səmərə əldə edirlər. Lakin onların iqtisadiyyatları birtərəfli inkişaf edir və onlar dünya bazarından asılı vəziyyətdə qalırlar. Məhz belə bir meyl müasir dünya iqtisadiyyatında dominant rolunu oynayır. Dünya iqtisadiyyatında ümumi iqtisadi inkişaf müşahidə olunur, lakin inkişaf etmiş ölkələrlə inkişaf etməkdə

olan ölkələr arasında fərq getdikcə artır. (6, səh 26)

Qeyd edilən formada dünya miqyasında mövcud olan istehsalın beynəlmiləlləşməsini stimullaşdıran və eləcə də prosesə nəzarət edən orqan rolunda Ümumdünya Ticarət Təşkilatı və Beynəlxalq Valyuta Fondu çıxış edir.

Təcrübə göstərir ki, inkişaf etməkdə olan ölkələrdə inteqrasiya prosesi yavaş templə gedir. Bu cür vəziyyət hər bir ölkənin iqtisadiyyatının xüsusiyyətləri ilə əlaqədardır. Bu xüsusiyyətlər özünü aşağıdakı parametrlərdə göstərir: məhsuldar qüvvələrin inkişaf səviyyəsinin aşağı olması; milli iqtisadiyyatın məhdud istiqamətli struktura malik olması; birgə beynəlxalq və regional layihələrin həyata keçirilməsi üçün maliyyə vəsaitlərinin çatışmazlığı; infrastrukturun kifayət dərəcədə inkişaf etməməsi; maliyyə cəhətdən inkişaf etmiş ölkələrdən asılılıq; siyasi qeyri sabitlik və s. (7, səh 26)

Qeyd edilənlər təsdiq edir ki, beynəlxaq aləmdə inteqrasiya proseslərinin yüksək səviyyədə təmin olunması iştirakçı ölkələrin iqtisadi inkişaf səviyyəsinin bərabərləşdirilməsinə gətirib çıxarır. Bu faktın özü beynəlxalq iqtisadi inteqrasiyanın daha bir xüsusiyyətini üzə çıxarır.

**Nəticə**

Tərəfimizdən aparılan araşdırma göstərir ki, ölkələrarası inteqrasiyanın mövcudluğu dünya iqtisadiyyatının dinamik inkişaf etməsinə, ölkələrin iqtisadi inkişafında sabitliyin təmin olunmasına, beynəlxalq əmək bölgüsünün səmərəli nəticələr verməsinə, çoxsaylı iri beynəlxalq layihələrin icra olunmasına, qloballaşmanın sürətlənməsinə və s. müsbət meyllərin formalaşmasına səbəb olur.

Beynəlxalq iqtisadi inteqrasiya elmi-texniki tərəqqinin inkişafının müasir mərhələsində təsərrüfat həyatının beynəlmiləlləşməsinin ən mühüm təzahürlərindən biri kimi çıxış edir. Bu proses özündə ayrı-ayrı ölkələrin və ölkələr qrupunun dayanıqlı qarşılıqlı əlaqələrinin dövlətlərarası siyasətin razılaşdırılması yolu ilə inkişaf etdirilməsini əks etdirir.

Beynəlxalq iqtisadi inteqrasiya öz xarakterinə görə dünya iqtisadiyyatının inkişafında üstünlük təşkil edən meylə çevrilmişdir. Bu prosesin nəticəsində inteqrasiya olunmuş iri iqtisadi bloklar yaranır ki, onlar da dünya iqtisadiyyatında aparıcı əhəmiyyətə malik olurlar.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Белоусов Д.П., Солнцев О.Г «Об использование ресурсов стабилиза-ционного фонда для стимулирования экономического роста» Проблемы прогнозирования-Журнал №4, 2021.

2.Суетин А.А. «Международный финансовый рынок». Кно Рус, 2017, 264 стр.

3.Аникин О.Б. «Международные валютно-финансовые и кредитные отношения». Фин.Издат. 2018, 24 стр.

4. «Интеграция в Западном полушарии» //Отв.ред.А.Н.Глинкин. ИЛА РАН, 2014, 296 стр.

5.Звонова Е.А. «Международные внешнее финансирование в современной экономике» Изд. Экономика, 2020, 324 стр.

6.Носкова И.Я., Максимова Л.М. «Международные экономические отношения» М: Экономика - пресс, 2019, 282 стр.

7.Панфиленко О.Н. «МВФ и страны третьего мира: что дальше?» Коммерсант, журнал №9, 2021, 14-29 стр.

**Амира Джаббар гызы ИСМАИЛОВА**
Азербайджанский Университет Кооперации, докторант
E-mail: amire1986@mail.ru

## ОСОБЕННОСТИ МЕЖДУНАРОДНОЙ ЭКОНОМИЧЕСКОЙ ИНТЕГРАЦИИ

**Резюме**

В статье экономическая интеграция рассматривалась как взаимная адаптация и совместная деятельность хозяйственных систем отдельных стран. Изложены принципы, необходимые для организации и развития интеграции.

Была выполнена аналитическая работа, которая исследовала эффекты процесса экономической интеграции на участвующие в нем страны, и были обнаружены положительные трансформации, которые он повлёк за собой.

Исследованы принципы организации интеграционных процессов на микро-и макроуровне. Далее были прокомментированы другие наиболее важные особенности процесса интеграции. Объяснено влияние каждой из этих характеристик на экономические отношения. В результате интеграционных процессов оценивалась экономическая интеграция. В этом направлении главным условием было объяснено возникновение международного разделения труда и международных производственных кооперативов.

**Ключевые слова:** интеграция, международное разделение труда, международная производственная кооперация, интеграция на макроуровне, интеграция на микроуровне

**Amira Jabbar ISMAİLOVA**
Azerbaijan University of Cooperation, PhD student
E-mail: amire1986@mail.ru

## FEATURES OF İNTERNATİONAL ECONOMİC İNTEGRATİON

**Resume**

The article examined economic integration as a process of mutual adaptation and collaborative engagement between the economic systems of individual countries. It also outlined the fundamental principles required for organizing and fostering integration.Furthermore, an analytical study was conducted to explore the impacts of economic integration on the participating countries, revealing the positive changes and transformations it brought about. The article delved into examining the principles governing the organization of integration processes at both the micro and macro levels. Additionally, it provided insights into other crucial features of the integration process. Furthermore, the article explained the influence of each of these characteristics on economic relations. By evaluating the outcomes of integration processes, the article assessed the overall impact of economic integration. As a result of integration processes, economic integration was evaluated. In this direction, the main condition was explained by the emergence of an international division of labor and international production cooperatives.

**Key words:** integration, international division of labor, international production cooperation, integration at the macro level, integration at the micro level.

**Daxil olub:** 12.03.2023